# Yürüş və anım mərasimi




**Xocalı soyqırımının 33-cü ildönümü ilə əlaqədar Türkiyənin Kütahya vilayətinin Tunçbilek bələdiyyəsi tərəfindən anım mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə Azərbaycanın İstanbuldakı baş konsulluğunun konsulu Zaur Allahverdizadə, Tunçbilek bələdiyyəsinin sədri Mustafa Düzgün və digər ictimaiyyət nümayəndələri və tələbələr iştirak ediblər. Mərasim iştirakçıları Xocalıda törədilən soyqırımı zamanı həyatını itirənləri yad etmək məqsədilə Azərbaycan parkına yürüş edib, burada yerləşən Xocalı soyqırımı abidəsinin qarşısına əklil qoyub, tər güllər düzüblər.

Anım mərasimində çıxış edənlər 33 il keçməsinə baxmayaraq, Xocalıda törədilən soyqırımının əsla unudulmayacağını vurğulayıblar.

Natiqlər Xocalıda vəhşicəsinə qətlə yetirilən hər bir soydaşımızın Azərbaycanla yanaşı, Türkiyə xalqının da qəlbində əbədi yaşayacağını, bu soyqırımı zamanı xüsusi amansızlıqla öldürülən hər bir insanın haqqını tələb etməyə davam edəcəklərini bildiriblər.

Qeyd edək ki, Azərbaycan parkı və Xocalı soyqırımı abidəsi Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə 2018-ci ildə Kütahyanın Tavşanlı rayonunun Tunçbilek bələdiyyəsi tərəfindən inşa edilib və istifadəyə verilib.

Azərbaycan.- 2025.- 25 fevral (№ 42).- S.9.